**Müasir dövrdə ənənə ilə bağlı məsələlərin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu gün dünya miqyasında baş verən proseslər ənənə ilə bağlı problemləri yenidən gündəmə gətirmişdir. Dünyada gedən qloballaşma, müxtəlif milli mədəniyyətlərin inteqrasiyası şəraitində Azərbaycan musiqisinin, o cümlədən bəstəkar yaradıcılığının özünəməxsusluğunu qoruyub saxlaması ilk növbədə məhz ənənə məfhumuna münasibətdə tutduğumuz mövqe ilə bağlıdır.**

# Şərq və Qərb musiqi ənənələrinin qovuşuğunda yaranmış bəstəkarlıq məktəbi

**Artıq məqsədyönlü şəkil almış qloballaşma ətrafında son zamanlar beynəlxalq miqyasda aparılan fikir mübadiləsinə qoşulan müxtəlif peşə sahibləri, alim və yazıçılar, görkəmli şəxsiyyətlər bu prosesin müsbət və mənfi cəhətlərini ayırd etməyə və nəticələrini proqnozlaşdırmağa çalışırlar.**

**Bu obyektiv tarixi prosesin dönməzliyini nəzərə aldıqda bunun tərəfdarları və əleyhdarları arasında seçim etməyin mənasızlığını başa düşərək yalnız bunu qeyd etmək istərdik ki, belə şəraitdə milli-mənəvi sərvətlərimizin, qədim və zəngin tarixə malik mədəniyyətimizin, incəsənət və musiqimizin özünəməxsusluğunu qoruyub saxlaması ənənə anlayışının düzgün təfsiri olmadan mümkün deyildir.**

**Təbii ki, bu, təkcə Azərbaycan incəsənəti və musiqisi üçün deyil, həm də dünya incəsənətinə öz töhfəsini vermiş, bəşər mədəniyyətini öz milli mənəvi dəyərlərilə zənginləşdirmiş bütün xalqlar üçün aktual bir məsələdir.**

**Şübhəsiz ki, bu gün millətlərarası əlaqələrin, ümumi inteqrasiya prosesinin, qarşılıqlı mədəni dialoqun əhəmiyyətini danmayaraq, eyni zamanda bu gün dünyanın mədəni xəritəsindəki dəyişiklikləri, milli mədəniyyətlərin unifikasiyası təhlükəsini də nəzərə almalı və çalışmalıyıq ki, millətimizin əsrlərdən bəri zərrə-zərrə topladığı mənəvi dəyərlər, həmçinin zəngin sənət xəzinəsi itib-batmasın.**

Və əgər hər bir xalq, millət öz mədəni dəyərlərinə, ənənələrinə bu cür münasibət göstərərsə, çox güman ki, bizim gələcəkdə yaşayacağımız dünya tanınmış Peru yazıçısı Mario Valqas Lyosanın təəssüflə qeyd etdiyi kimi, əvvəlki dövrlərdə ona xas olan parlaqlığını, yerli koloritlərini itirmiş bir məkan deyil, özünəməxsus, rəngarəng milli mədəniyyətlərilə seçilən bir aləm olar.

Bu gün Azərbaycanın çoxşaxəli musiqi sənətinin özünəməxsusluğunun, klassik ənənələrinin qorunub saxlanılması yolunda aparılan geniş tədbirlər sistemi dövlətimizin müdrik və uzaqgörən milli mədəni siyasətinin parlaq göstəricisidir. Bu siyasət nəticəsində son illərdə xalqımızın qədim muğam və aşıq sənətinin YUNESKO tərəfindən "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsəri" elan edilməsi, bu unikal sənət nümunələrinin qorunması və təbliği məqsədilə bir sıra beynəlxalq əhəmiyyətli möhtəşəm layihələrin həyata keçirilməsi Azərbaycanın millətlərarası münasibətlərdə, mədəni dialoqda öz zəngin ənənələri ilə çıxış etməklə beynəlxalq aləmdə özünü getdikcə daha yaxşı tanıtdığını və ölkəmizin dünya miqyasında nüfuzunun yüksəldiyini bir daha sübut edir.

Azərbaycan bəstəkarlarının yaradıcılığını tədqiq etdiyimiz zaman ənənə və müasirlik məsələsinin milli musiqimiz üçün nə dərəcədə aktual olduğunu görə bilərik. Azərbaycanın təxminən bir əsrə bərabər tarixə malik olan bəstəkar yaradıcılığının da milli musiqi sənətimizin özəl bir qolu olaraq bu gün bütün dünyada şöhrət qazanması burada təcəssümünü tapmış zəngin ənənələr və bunların qorunub inkişaf etdirilməsi ilə bağlıdır.

Azərbaycan bəstəkarlıq məktəbinin bənzərsiz simasını müəyyən edən milli musiqi üslubu məhz Şərq ilə Qərbin qədim və zəngin musiqi ənənələrinin qovuşması nəticəsində meydana gəlmişdir. Aydındır ki, burada və məqalənin sonrakı bölümlərində işlətdiyimiz "Şərq", "Qərb", "Avropa" anlayışları coğrafi mənada deyil, müxtəlif təfəkkür tərzinin ifadəsi kimi təzahür edən hadisələr cəmi mənasında istifadə edilir.

Bildiyimiz kimi, uzun müddət davam edən bir tarixi dövr ərzində bəşər musiqisinə Avropasentrist mövqedən yanaşılmanın, "dünya musiqisi" anlayışı altında yalnız "Avropa musiqisi"nin (çox vaxt isə "qərbi Avropa musiqisi"nin) başa düşülməsinin, "professional" musiqi" deyildikdə əslində Avropanın bəstəkar yaradıcılığının nəzərdə tutulmasının düzgün olmadığı üzə çıxdığı zaman Qərb dünyası üzünü Şərqə tərəf çevirmiş oldu.

O vaxtadək biganə qaldığı, ən yaxşı halda ekzotik bir aləm kimi ara-sıra maraq göstərdiyi bu aləmi Qərb özü üçün sanki yenidən kəşf etmiş oldu. Bu məlum faktın üzərində dayanmağı lazım bilməyərək, eyni zamanda Şərq-Qərb münasibətləri tarixinin yanlış başa düşülməməsi naminə bu məsələyə qısa bir aydınlıq gətirməyi zəruri saydıq.

Şərq ilə Qərb mədəniyyəti və incəsənəti arasında tarixi keçmişdəki əlaqələri bir kənara qoyaraq, son yüzilliklərdəki vəziyyəti nəzərdən keçirsək, bunların bir-birindən heç də tamamilə təcrid edilmədiyini görərik. Yəni, Şərq ilə Qərbin incəsənəti və musiqisində qədimdən bəri aşkara çıxan müəyyən kəsişmə nöqtələrini inkar etmək olmaz; nisbətən yaxın keçmişdə isə Qərbi Avropa bəstəkarlarının yaradıcılığında parlaq təzahür edən oriyentalizm təmayülünün inkişafı, coğrafi ərazi (Qafqaz, Orta Asiya) və imperiyadaxili ictimai-siyasi bağlılıq sayəsində Şərq xalqlarının mədəniyyətilə birbaşa təmasda olan rus bəstəkarlarının musiqisində bu təmayülün özünəməxsus cəhətlər kəsb etməsi və daha parlaq təzahürü - bütün bunlar Qərb ilə Şərq musiqisinin qovuşmasına aparan yolun mühüm mərhələləri idi.

Lakin bu da məlumdur ki, XX əsrədək Şərq musiqisi ilə Avropa musiqisinin hansı şəkildəsə qovuşdurulması cəhdləri bunların üzvi sintezi ilə nəticələnə bilməzdi; belə bir qovuşuğun meydana gəlməsi iki müxtəlif musiqi təfəkkürü prinsiplərinin, iki fərqli musiqi sistemini səciyyələndirən qanunların üzvi birləşməsi nəticəsində ola bilərdi ki, bu da Üzeyir Hacıbəyli kimi dahi sənətkar tərəfindən gerçəkləşdirilmişdir.

Bəşər mədəniyyətinə öz böyük payını vermiş Asiya və Afrika xalqlarının qədim və zəngin folklor və şifahi ənənəli professional musiqi ənənələrinə yeni münasibətin formalaşmasının ilkin səbəblərindən biri də məhz XX əsrin əvvəllərində Şərqdə yaranan Avropa tipli ilk bəstəkarlıq məktəbləri, o cümlədən Üzeyir Hacıbəyovun şəxsində Azərbaycanda meydana gəlmiş və tez bir zamanda sürətlə irəliləməkdə olan bəstəkar yaradıcılığı idi ki, öz milli siması ilə dünyanın digər məktəblərindən seçilirdi. Təsadüfi deyil ki, ənənə və müasirlik kontekstində dünya xalqlarının və ilk növbədə Asiya və Afrika musiqi mədəniyyətinin hazırkı vəziyyəti və gələcək taleyi ilə bağlı maraqlı məsələləri müzakirəyə çıxarmış olan VII Beynəlxalq Musiqi Konqresində aparılan (1971, Moskva) qızğın mübahisələrdə - Şərq xalqlarının musiqi mədəniyyətinin inkişaf perspektivləri ətrafındakı diskussiyalarda çıxış edən musiqiçi-alimlər məhz Azərbaycan bəstəkarlıq məktəbinin təcrübəsinə əsaslanaraq, bəstəkar yaradıcılığında Şərq-Qərb ənənələrinin sintezinin nə dərəcədə səmərəli ola bilməsini və yeni bədii kəşflərə yol açdığını təsdiqləmişlər.

Həmin konqres, modal sistemə əsaslanan Şərq musiqisinin özünəməxsusluğunu, qədim ənənələrini itirməməsi naminə bunun yalnız qapalı, təcrid olunmuş şəkildə inkişafını düzgün yol hesab edən nəzəriyə tərəfdarları (Alen Danielu) ilə Şərq-Qərb musiqi mədəniyyətlərinin qarşılıqlı inteqrasiyası, bir-birinə səmərəli təsiri və bunun nəticəsində yaranan yeni ənənələri dəstəkləyən musiqiçilər arasındakı polemika ilə yadda qalmışdır.

Təsadüfi deyil ki, "təcrid" ideyasını irəli sürərək müdafiə edən musiqiçilərin yanlış mövqedə olduğunu göstərmək məqsədilə həmin diskussiyalarda əks cəbhəni təmsil edən konqres iştirakçıları bu nəzəriyəni alt-üst edən fakt kimi Şərq ölkələrinin nümayəndələri olan bəstəkarların və ilk növbədə Azərbaycan bəstəkarlıq məktəbinin yaradıcılıq təcrübəsini misal gətirərək, dünya musiqisinin iki fərqli sisteminin qovuşuğundan keyfiyyətcə yeni olan musiqi üslubunun, yeni ənənənin yaranmasını vurğulamışlar.

"Bir musiqi sistemi elementlərinin digər sistemdə istifadəsi zamanı ilk növbədə bunların bir-birilə uyuşa biləcəyinə əmin olmalısan. Məsələn, modal və harmonik forma arasında qəti uyuşmazlıq mövcuddur. Buna görə də İran dəstgahını harmonizə etmək üçün göstərilən hər bir cəhd mənasızdır. Hər bir modal sistem - hind raqası, İran dəstgahları, ərəb makamları - bunlardan hər biri özlüyündə musiqi ifadə vasitələrinin mükəmməl sistemidir.

Bunlar son dərəcə zəngin ifadə imkanlarına, geniş musiqi lüğətinə, mürəkkəb sintaksisə və dəqiq işlənib hazırlanmış inkişaf qanunlarına malikdir. Biz bu sistemin ayrı-ayrı melodik elementləri üzərinə başqa bir sistemə xas olan polifonik, kontrapunktik və ya harmonik elementləri qaladıqda melodik forma öz əhəmiyyətini itirir, istifadə edilən harmonik elementlər isə primitiv və bayağı görünür. Nəticədə inkişaf perspektivinə malik olmayan ucuz və yaşamağa qabil olmayan hibrid alınır.

Bunu novatorluq adlandırmaq-aldatmaq deməkdir. Bu, yalnız səriştəsiz musiqiçilərin icad etdiyi uşaq oyunudur. İstənilən sistemdə işləyən əsl sənətkarlar heç vaxt belə faydasız cəhdlərə təşəbbüs göstərməzlər" (2, s.88). Şübhəsiz ki, Şərqin modal musiqi sisteminə aid olan musiqi ənənəsinin unikallığını əsas götürdükdə buraya hər hansı bəstəkar (Avropa tipli bəstəkar yaradıcılığı nəzərdə tutulur) müdaxiləsinin zərərdən başqa bir şey gətirməyəcəyi fikrilə tamamilə razılaşmalıyıq.

"Avropa musiqisini öyrənərkən bir şeyi yaddan çıxarmaq lazım deyildir ki, o da Avropa musiqisi ilə Şərq musiqisini qarışdırmamaq. Məsələn: "Şur" oxuyarkən içinə Avropa qina stili salıb, "romansa" döndərməmək. "Bayatı-Şiraz" çalarkən Qərb musiqisinin "Arpecio"suna bənzər yaraşıqsız barmaq vurmamaq, bir Şərq havasını "harmonizə" edərkən xaric səsli akkordlar istemalı ilə havanı korlamamaq" (1, s. 202).

Əsrlərdən bəri şifahi şəkildə inkişaf edən, İ.Stravinskinin təbirincə desək, qiymətli bir miras kimi hər bir nəsil tərəfindən zənginləşdirilərək digər nəslə ötürülən və bu gün də Azərbaycan musiqisində klassik ənənə kimi yaşayan muğamın, aşıq sənətinin möhkəm dayaqlarına hər cür "təcavüz", saxta yenilikçilik cəhdləri bu özünəməxsus sənət nümunələrinin bir ənənə kimi dağılmasına gətirib çıxara bilər. Söhbət bu zəngin ənənələr daxilindəki inkişafdan deyil, bunların bəhrələndirdiyi yeni ənənədən - bəstəkar yaradıcılığından gedir.

"Təcrid" nəzəriyəsinin təbliğatçılarının fikrincə, iki müxtəlif musiqi dili sistemlərinin qovuşması ona görə mümkün deyil ki, heç bir dili başqa bir dildən əxz olunmuş ünsürlərlə üzvi surətdə birləşdirmək və bunların hesabına zənginləşdirmək olmaz. Odur ki, bu istiqamətdə heç bir novatorluqdan danışmaq mümkün deyil, belə ki, hər cür

novatorluq yalnız hər bir dil sisteminin daxilində, ənənənin inkişafı prosesində mümkündür.

Qeyd edək ki, fransız aliminin heç bir musiqi sistemini digərindən üstün hesab etməyin düzgün olmadığı, bunlardan hər birinin yaşamaq haqqına malik olması barədə mülahizələrini tamamilə haqlı hesab edərək, eyni zamanda onun "təcrid" nəzəriyəsinin bütövlükdə səhv olduğunu artıq həyatın özü, Şərq xalqlarının və ilk növbədə Azərbaycan bəstəkarlıq məktəbinin inkişaf yolu və qazandığı nailiyyətlər sübut etmişdir.

Artıq konqresin keçirildiyi dövrdə Şərq ilə Qərbin musiqi ənənələrinin qovuşması nəticəsində təşəkkül tapan bəstəkar yaradıcılığında meydana gələn milli üslub və bunun inkişafı göz qabağında idi. Bu barədə konqresdə iştirak edən bir çox görkəmli musiqi xadimləri, o cümlədən D.Şostakoviç, F.Əmirov, V.Konen, V.Vinoqradov və bir çox başqa iştirakçılar geniş məlumat verərək Şərqdə, o cümlədən Azərbaycanda yaranmış bəstəkarlıq məktəbinin simasında Şərqin musiqi sistemi ilə Qərb ənənələrinin birləşməsinin dünya musiqisi məcrasına yeni bədii kəşflərlə əlamətdar olan bir istiqamətin qoşulduğunu vurğulamışlar.

Bu gün milli bəstəkarlıq məktəbimizin inkişafının ənənəvi milli musiqimizin, muğam, aşıq sənəti kimi şifahi yaradıcılıq sahələrinin - musiqi yaradıcılığının iki müxtəlif professional qolunun inkişafı ilə paralel davam etməsi, iki bədii ənənənin eyni vaxtda yaşaması bu mövqeyin düzgünlüyünü bir daha sübut edir. Milli musiqimizin tarixində Ü.Hacıbəylinin bu təcrübəsi konqresdə iştirak edən XX əsrin ən böyük sənətkarlarından biri - D.Şostakoviçin öz mövqeyini əminliklə müdafiə etməyə əsas verən əyani bir nümunə, tarixi fakt idi: "Zənnimcə, məsələ müxtəlif musiqi sistemlərinin "uyuşa bilməsi" və ya "uyuşmazlığı"nda deyil, bundadır ki, etnik və coğrafi cəhətdən müxtəlif olan xalqların mədəniyyətinin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri problemi necə və hansı metodlarla həll edilir.

Burada hər şeyi musiqi xadiminin - bəstəkar, ifaçı, pedaqoq, nəzəriyyəçinin bədii nəzakəti və istedadı, onun incəsənət qarşısında məsuliyyəti və yaradıcılıq vicdanı həll edir" (4, s.167).

Şübhəsiz ki, musiqimizin məhz bu istiqamətdə inkişafının, yeni milli musiqi üslubunun yaranmasının ilk növbədə nəhəng tarixi missiyanı yerinə yetirmiş dahi Üzeyir Hacıbəylinin uzaqgörənliyi və apardığı böyük nəzəri və yaradıcılıq fəaliyyəti sayəsində mümkün olması bu fikri bir daha təsdiq edir ki: "Yalnız böyük fərdiyyət yeni ənənələrin beşiyi önündə duraraq milli üslubun inkişafının səhifəsini çevirə bilər.

Bu səhifə yalnız köhnənin üzvi inkişafı (bu da özlüyündə çox vacibdir) deyil, özünəməxsus sıçrayış, yaradıcılıq məişətinə elə qeyri-adi təfəkkür prinsiplərinin daxil edilməsilə əlamətdar ola bilər ki, bunların xalq yaradıcılığı ilə, hətta milli musiqinin bütün əvvəlki təcrübəsi ilə vasitəli şəkildə əlaqədar olsun" (3, s.67).

**Belə "böyük fərdiyyət"lər sırasına aid olan dahi Üzeyir Hacıbəyli Qərb ilə Şərqin musiqi ənənələrindən bəhrələnərək milli musiqi üslubumuzun inkişafı tarixində yeni səhifəni açmağa müvəffəq olmuş və bununla da milli bəstəkarlıq məktəbimizin başlıca kredosu, bədii prinsipini müəyyən etmişdir. Bunun sayəsində Azərbaycan bəstəkarlıq məktəbi tez bir zamanda böyük təkamül yolu keçərək, dünyanın ən qabaqcıl məktəbləri səviyyəsinə yüksəlmişdir.**

● **Şəhla HƏSƏNOVA,**
***əməkdar incəsənət xadimi,***
***sənətşünaslıq namizədi,***
***Ü. Hacıbəyli adına BMA-nın professoru***

## Ədəbiyyat

1. Səfərova Z. Üzeyir Hacıbəyov yaradıcılığının nəzəri və estetik problemləri. Bakı, "Elm", - 1985.
2. Даниелу А. Традиция и новаторство в различных музыкальных культурах мира. Музыкальные культуры народов: традиции и современность. М., "Советский композитор" - 1973.
3. Орджоникидзе Г. О динамике национального стиля. Музыкальные культуры народов: традиции и современность. М., "Советский композитор" - 1973.
4. Шостакович Д. Национальные традиции и закономерности их развития.Музыкальные культуры народов традиции и современность. М., "Советский композитор" - 1973.

**Резюме**

Гениальный классик азербайджанской музыки Узеир Гаджибейли, заложивший основы национальной композиторской школы, осуществив синтез музыкальных традиций Востока и Запада, тем самым определил основное кредо, главный художественный принцип этой школы и национальный музыкальный стиль. Возникшая на стыке традиций азербайджанская композиторская школа прошла огромный путь развития и достигла уровня передовых композиторских школ XX века.

**Summary**

Genius classic of Azerbaijani music Uzeyir Gadjibeyli who estabilished basics of the national composer school accomplished the synthesis of the musical tradition of the East and West and as a result identified basic credo, main art's principle of this school and national musical style. The Azerbaijani composer school emerged at the junction of traditions gone through a long way of development and reached the level of the highest composer schools of the 20th Century.